DƏMİR YUMRUQ YERİNDƏDİR!

Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA



"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır"

Heydər Əliyev

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 01-02 (1542) 30 yanvar - 13 fevral 2024-cü il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı



## İlham Əliyev 3 gün ərzində and içəcək

**Bu gün Konstitusiya Məhkəməsi 2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərinin nəticəsini təsdiq edib.**

Konstitusiya Məhkəməsinin qərarı ilə Mərkəzi Seçki Komissiyasının yekun protokoluna əsasən, İlham Əliyev 92.12 faiz səslə prezident seçkilərində qalib gəlib.

Konstitusiyanın 103-cü maddəsinə uyğun olaraq, Prezident seçilmiş şəxs Prezident seçkilərinin yekunları haqqında məlumatın Konstitusiya Məhkəməsi tərəfindən rəsmi elan olunduğu gündən başlayaraq 3 gün ərzində and içir.

## İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.















## İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olublar




**Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.**

Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat verdilər. Bildirildi ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.

burada PUA-nın idarəolunmasını praktiki həyata keçirdi.

PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.

Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirdi.

Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış oldu.

Zakir Həsənov və

Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəldi. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev

Müzəffər Ali Baş Komandan burada "Akıncı" hücum PUA-sı və aviabombaları ilə də tanış oldu.

## Möhtərəm cənab prezident İlham Əliyev 92.05 faiz rekord səs toplayıb

### Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə zəng edib

Fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

***

### Rusiya Federasiyasının Prezidenti Vladimir Putin İlham Əliyevə zəng edib

Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

***

### Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon İlham Əliyevə zəng edib

Fevralın 8-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Emoməli Rəhmon İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.

***

### Albaniya Respublikasının Prezidenti Bayram Beqay İlham Əliyevə zəng edib

Fevralın 8-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Bayram Beqay dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

***

### Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel İlham Əliyevə zəng edib

Fevralın 8-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şarl Mişel fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzulayıb.

***

### Qırğız Respublikasının Prezidenti Sadır Japarov İlham Əliyevə zəng edib

Fevralın 8-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qırğızıstan Prezidenti İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. Sadır Japarov dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd edərək, ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğulayıb.

***

### Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev İlham Əliyevə zəng edib

Fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb.

***

### Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı İlham Əliyevə zəng edib

Fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət Bağçalı İlham Əliyevə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbənin və suverenliyimizin tam təmin bərpa olunmasının önəmini bir daha vurğulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulanıb.

***

### İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid İlham Əliyevə zəng edib

Fevralın 7-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İraq Prezidenti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan ilə İraq arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq əməkdaşlığın genişlənəcəyinə əminlik bildirilib.

***

### Macarıstanın Baş naziri Viktor Orban İlham Əliyevə zəng edib

Fevralın 7-də Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Viktor Orban İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

# Biz prezidentimiz İlham Əliyevə inanırıq, güvənirik və arxalanırıq



Ömrümün 75-ci ilini yaşayıram. Bu illər ərzində çox işlər görmüş, əvəzolunmaz tarixi hadisələrin şahidi olmuşam. Ən xoşbəxt və yadddaqalan hadisələrdən biri 1971-ci ildə Bakı Dövlət Universitetində təhsil alanda olmuşdur. Həmin ildə Ölu öndər Heydər Əliyev universitetə gəlmiş və mənim dərs dinlədiyim auditoriyaya daxil olaraq tələbələrlə görüşmüş, əlini mənim çiynimə qoyaraq xeyli söhbət etmişdir. Mən bu gün də həmin anları xatırlayır, dahi rəhbərin tələbələrə verdiyi tövsiyələri öz fəaliyyətimdə rəhbər tuturam. Artıq həmin dövrdən 50 ildən çox vaxt keçib. Bu illər ərzində mən müəllimlik, jurnalistlik peşələrinə yiyələnmiş, politoloq ixtisası almışam. Bir müddət Daşkəsən rayonunda müəllim, həmin rayonda dərc olunan qəzetdə məsul katib, 1980-1990-cı illərdə isə Qazax rayon Partiya Komitəsində, Rayon İcraiyyə Komitəsində rəhbər vəzifələrdə çalışmışam. Ağstafaya müstəqil rayon statusu verilən vaxtdan hal-hazıra kimi "Ağstafa"qəzetinin baş redaktoru vəzifəsində çalışıram. Bu illər ərzində mətbuat işçisi kimi çalışmışam ki, rayonun ictimai-siyasi həyatında baş verən yenilikləri oxucularımza çatdırım, ölkə başçımızın əhalinin sağlamlığının qorunması, həyat səviyyəsinin yüksəldilməsi üçün verdiyi qərar və sərəncamlarla ictiamiyyəti məlumatlandırım.

İftixarla deyə bilərəm ki, çəkdiyim zəhmət heç vaxt hədər getməmiş, əməyim Ulu öndər Heydər Əliyev, möhtərəm cənab Prezidentimiz İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir.

1998-ci ildə Ulu öndərin vəsaiti ilə Həcc ziyarətinə göndərilmiş, 2015-ci ildə "tərəqqi" medalına layiq görülmüşəm. 2016-cı ildə isə mənə yüksək etimad göstərilmiş, cənab Prezidentimiz İlham Əliyev rayonumuzda səfərdə olarkən onunla görüşmək, rayonumuz haqqında qısa məlumat vemək mənə etibar edilmişdir. Mən həmin görüşü həyatımın ən xoşbxt anlarından biri hesab edir, o anları hər gün, hər saniyə xatırlayıram.

O vaxtlar Qarabağ torpaqları işğal altında idi. Mən xalqımızın prezidentimizə olan hörmətini, məhəbbətini, inamını söhbət zamanı bildirdim və dedim ki, siz yaxşı bilirsiniz ki, müharibə qansız ötüşmür, odur ki, işğal alıtnda olan torpaqlarımızı sülh yolu ilə azad etmək istəyirsiniz. Lakin erməni quldurları bunu başa düşmədi. Vaxt gələcək Qarabağda qan töküb hakimiyyətə gələn erməni rəhbərlərini özləri müttəhimlər kürsüsündə oturdacaq və dar ağacından asacaqlar. Bəli, bu gün həmin vaxt gəlib çatmışdır.

Torpaqlarımız işğaldan azad olundu, Arutyunyan, Babayan, Xaçatryan kimiləri məhkəmə salonlarında etdikləri cinayət əməllərinə görə cavab verirlər. Biz isə ən xoşbəxt günlərimizi yaşayırıq. Cənab prezidentimizin göstərişi və sərəncamı ilə işğaldan azad olunmuş torpaqlarda böyük quruculuq, abadlıq işləri aparılır. Çox qısa bir vaxtda Qarabağda dağıdılmış evlər bərpa olunmuş, təhsil, səhiyyə və digər müəssisələr yenidən qurulmuşdur. Hər gün televiziya kanallarından eşidəndə və görəndə ki, məcburi

köçkünlər öz doğma yurdlarına qayıdır, onlara yüksək səviyyədə inşa olmuş mənzillərin açarları verilir. Belə verilişləri görəndə istər-istəməz adamın ürəyi dağa dönür və prezidentimiz cənab İlham Əliyevə, vitse-prezident Mehriban xanım Əliyevaya olan hörmət və məhəbbətimiz daha da artır.

Bu gün biz müstəqil dövlətdə yaşayırıq. Ərazi bütövlüyümüz tam bərpa olunmuşdur. Belə bir vaxtda ölkəmizdə növbədənkənar prezident seçkisinin keçirilməsini labüd hesab edirik. Azərbaycan xalqı buna nail oldu. Fevral ayının 7-də ölkəmizdə şəffaf, demokratik seçki keçirildi və vətənini, torpağını sevən hər bir vətəndaş İlham Əliyevə yekdilliklə səs verd. Bu seçim bütün dünya dövlətləri tərəfindən diqqətlə izlənildi, onların ölkəmizdə olan səlahiyyətli nümayəndələri demokratik seçkinin şahidi oldular. Onlar gördülər ki, Azərbaycan xalqı işğal altında olan Qarabağ torpaqlarını işğaldan azad edən, qəhrəman Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Əliyev cənablarına inanır, güvənir və arxalanırlar.

**İbrahim Əliyev**

# Ağstafa RİH başçısı Seymur Orucov vətəndaşların növbəti səyyar qəbulunu Saloğlu qəsəbəsində keçirdi

**Müvafiq qrafikə uyğun olaraq Saloğlu qəsəbə tam orta məktəb binasında təşkil olunan səyyar qəbulda RİH başçısı aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, aidiyyəti üzrə təşkilatların nümayəndələri və yaşayış məntəqəsinin sakinləri iştirak ediblər.**



RiH başçısı görüşdə çıxış edərək bildirdi ki, Ümummilli Lider Heydər Əliyev ölkəmizi vətəndaş müharibəsindən xilas edərək Azərbaycanın müstəqilliyini qorudu, milli birliyimizi möhkəmləndirməklə xalqımızı sabitliyə, əmin-amanlığa qovuşdurdu. Ulu Öndərin dövlətçilik, idarəçilik prinsiplərinə sadiq qalan Prezident İlham Əliyev ölkəmizin iqtisadi, hərbi qüdrətini gündən-günə artırıb inkişafını daha etibarlı şəkildə təmin etməklə yanaşı, uğurlu fəaliyyəti ilə Azərbaycanı ən etibarlı, güvənli, sabit məmləkətə çevirdi, müstəqil siyasi, iqtisadi qərarları ilə bütün dünyada nüfuzlu ölkə imicini qazandırdı.



Səyyar qəbulda vətəndaşların müraciət və təklifləri qəbul olunub, məsələlərin həlli istiqamətində aidiyyəti üzrə məsul şəxslərə nəzarət qaydasında konkret tapşırıqlar verilib. Həmçinin vətəndaşlara qanunamüvafiq qaydada izahatlar verilib.

# Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə dair hesabat verildi

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov 2024-cü ilin 16 yanvar tarixində RİH başçısı aparatının inzibati binasında inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə, həmçinin rayonda fəaliyyət göstərən idarə və təşkilatlarda inzibati vəzifə daşıyan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə dair illik hesabatın müzakirəsini keçirmişdir.



İclas Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019?2025-ci illər üçün Strategiya"nın 2023?2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın 2.3-cü yarımbəndinin icrası ilə əlaqədar təşkil olunmuşdur.

İlk öncə Rayon İcra Hakimiyyətinin başçısı yığıncaqda dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi, qiymətləndirilməyə hazırlıq, həyata keçirilməsi, qiymətləndirilmənin nəticəsinə əsasən tətbiq edilən tədbirlər barədə məlumat verdi. Müzakirənin yekununda təlimlərə tələbatları müəyyən edilən dövlət qulluqçularının cari ildə əlavə təhsilə və təlimlərə cəlb edilməsi, həmçinin yüksək nəticə göstərən dövlət qulluqçularının mükafatlandırılması qərara alındı.

Diskussiya şəklində keçən müzakirələrin sonunda RİH başçısı Seymur Orucov dövlət qulluqçularına müvafiq tapşırıq və tövsiyələrini verdi, gələcək fəaliyyətlərində uğurlar arzuladı.

# 20 Yanvar şəhidi Habil Əzizovun ailə üzvləri və məzarı ziyarət olundu

**Rayon İcra Hakimiyyətinin Başçısı Seymur Orucov müavinləri və rayonun hüquq-mühafizə orqnlarının rəhbərləri ilə birlikdə Vətən oğlu, 20 Yanvar şəhidi Habil Kommunar oğlu Əzizovun doğma evində onun ailə üzvlərini ziyarət etdi.**



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə müstəqilliyimiz, suverenliyimiz uğrunda canlarından



keçən oğul və qızlarımızın azadlıq, milli şərəf və ləyaqət uğrunda göstərdikləri şücayətdən, eləcə də Ulu Öndər Heydər Əliyevin belə ağır məqamda xalqla birlikdə olmasından və hadisələrə layiqli siyasi-hüquqi qiymətin verilməsindən bəhs olunub. Qeyd olunub ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz 44 günlük müharibədə, eləcə də Xankəndinin terrorçulardan təmizlənməsi uğrunda gedən döyüşlərdə bütün şəhidlərimizin qisasını layiqincə aldı.

Vurğun qəsəbə qəbiristanlığında şəhidin məzarı üstünə tər qərənfillər düzülüb, xatirəsi ehtiramla anılıb.

Şəhidin qardaşı, Etimad Əzizov və digər ailə üzvləri ölkəmizdə şəhid ailələrinə hər zaman göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

# Təkliflər nəzərə alındı, problemlərin həll edilməsi üçün tapşırıqlar verildi

**Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov rayonun şəhər, qəsəbə və kəndlərində vətəndaşların səyyar qəbullarının keçirilməsini davam etdirir. Göycəli kənd tam orta məktəb binasında təşkil olunan növbəti vətəndaş qəbulunda başçının müavinləri və aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə strukturlarının rəhbərləri, aidiyyəti təşkilatların nümayəndələri və kənd sakinləri iştirak ediblər.**



Görüşdə RİH başçısı ölkəmizin çiçəklənməsi və tərəqqisi naminə Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətdən, dinamik sosial-iqtisadi inkişafdan, işğaldan azad olunmuş Qarabağ iqtisadi zonasında sürətlə davam edən nəhəng quruculuq işlərindən, Böyük Qayıdış konsepsiyasından ətraflı məlumat verdi. O, qeyd etdi ki, ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq Ağstafa rayonunun inkişafı və əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə icra olunan abadlıq-quruculuq və digər sosial infrastruktur layihələrdən danışdı.

Səyyar qəbulda iştirak edən vətəndaşlar son vaxtlar kənddə görülən işlərdən danışdılar və kənddə mövcud olan bəzi problemlər barədə məlumat verdilər.

Vətəndaşlar tərəfindən qaldırılan hər bir məsələ nəzarətə götürüldü və həlli yolları üçün aidiyyəti üzrə məsul şəxslərə müvafiq tövsiyələr və konkret tapşırıqlar verildi.

# Azərbaycan Gəncləri Günü qeyd olundu

Ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da 2 Fevral-Azərbaycan GənclərGünütəntənəli şəkildə qeyd olundu. Ağstafa rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdən əvvəl ağstafalı gənclər, Heydər Əliyev Mərkəzinin qaşısında Ümummilli Liderin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.Rayon İcra Hakimiyyətinin Başçısı Seymur Orucov Gənclər Günü münasibətilə rayonun ictimai-siyasi həyatında fəaliyyətlərində fərqləndiklərinə görə 44 günlük Vətən müharibəsi qaziləri, Əlləz Yusifovu və Vüqar Hacıyevi, həmçinin Şəfəq Cəlilovanı və Məleykə Abbasovanı Ağstafa Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif edib.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda videoçarx nümayiş etdirilib. Tədbirdə çıxış edənlər qeyd etdilər ki, Azərbaycan gəncliyinin həyatında yeni mərhələ dövlət gənclər siyasətinin banisi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumunun keçirilməsi olmuşdur. Bunun ardınca, 1 fevral 1997-ci il tarixdə ilk forumun ildönümü münasibəti ilə gənclərlə görüşən Ümummilli Lider "2 fevral - Azərbaycan Gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Məhz həmin tarixdən etibarən hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi böyük təntənə ilə qeyd olunur. Ulu öndər gənclərlə bağlı siyasətinə hər zaman yeni nəfəs vermiş, bu siyasətin davamlı xarakter almasını şərtləndirmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən dövlət gənclər siyasəti uğurla davam etdirilir. Dövlətimizin gənclərə diqqət və qayğısı sayəsində onların üzləşdikləri çətinliklər aradan qaldırılır, cəmiyyətin bütün sahələrində fəal iştiraklarını təmin etmək üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Tədbir gənc mədəniyyət və incəsənət nümayəndələrinin təqdimatında vətənpərvərlik mövzusunda, eləcə də milli ruhda mahnılardan ibarət bədii proqramla davam etdirilib.

# Qalib Bəhmən oğlu Cəfərov



Rayonun tanınmış ziyalısı, el ağsaqqalı Qalib Bəhmən oğlu Cəfərov 62 yaşında dünyasını dəyişdi.

Qalib Cəfərov 1961-ci il iyul ayının 1-də Zəlimxan kəndində anadan olmuş, həmin kənddə orta təhsil almış və 1983-cü ildə Bakı Dövlət Universitetinin fiolologiya fakültəsinə daxil olmuşdur. O, 1989-cu ildə institutu müvəffəqiyyətlə bitirərək "filoloq, Azərbaycan dili və ədəbiyyat müəllimi" ixtisasına yiyələnmişdir.

Q. Cəfərov 1987-1997-ci illərdə yaşadığı Zəlimxan kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. 1997-ci ildə ona bacarığına, qabiliyyətinə və savadına görə yüksək etimad göstərilmiş, işlədiyi Zəlimxan kənd orta məktəbinə direktor təyin olunmuşdur. O, ömrünün sonuna kimi həmini vəzifəni şərəflə yerinə yetirmiş, kənd orta məktəbini nümunəvi təhsil ocağı kimi tanıtmışdır.

Qalib Cəfərovu rayonda təkcə müəllim, məktəb direktoru kimi yox, həm də ictimai xadim kimi tanıyırdılar. Son illər rayonda keçirilən ən yüksək səviyyəli tədbirlərdə həmişə çıxış üçün qabaqcıl müəllimə söz verilmiş və o, məntiqli, savadlı, sərbəst çıxışına görə hamını heyran etmişdir. Məhz bunun nəticəsidir ki, dövlət başçımız Ağstafada səfərdə olarkən, bir çox ziyalılarla yanaşı onunla da görüşərək söhbət etmişdir.

Qabil Cəfərov işlədiyi dövrdə həmişə əməyinin bəhrəsini görmüş və ictimai fəaliyyətinə görə yüksək mükafatlara, fəxri fərmanlara layiq görülmüşdür.

Q. Cəfərov ailəli olmuş, 2 övlad yetişdirmişdir. Çox sevindirici haldır ki, onun oğlu Qismət Cəfərov atasının yolunu şərəflə davam etdirir. O, bu gün Bakı Dövlət Universitetində müəllim işləyir və doktorantdır. Qalib Cəfərov dünyasını dəyişsə də onun ruhu məktəb kollektivinin, dərs dediyi şagirdlərin və bütün ağstafalıların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Ağstafa rayon Təhsil Sektoru**

# Əmək yarmarkası təşkil edildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən növbəti əmək yarmarkası Ağstafada keçirildi.

Qazax-Tovuz Regional Məşğulluq filialı tərəfindən təşkil edilən tədbirdə müxtəlif iqtisadi sahələrdən olan 12 işəgötürən iştirak edib və 106 vakansiya təqdim edilib.

Vakansiyalara müraciət edən şəxslərin CV-ləri qəbul edilərək ətraflı şəkildə qiymətləndirilib və uyğun namizədlərin qeydiyyatı aparılıb.

Tədbirdə eyni zamanda işsiz və işaxtaran şəxslərə Agentliyin aktiv məşğulluq tədbirlərinə müraciət qaydaları barədə məlumat verilib.



# Keşikçidağ beynəlxalq arenada









Azərbaycanın tarixi baxımdan ən maraqlı bölgələrindən biri də Ağstafa rayonudur. Əlverişli təbii-coğrafi mövqedə yerləşən bu rayon təkcə Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqazda ən qədim insan məskənlərindən biridir Tədqiqatçıların fikrincə Azərbaycanın təbii-coğrafi mühiti, relyefi, ən azı üç milyon il bundan əvvəl formalaşıb və ən qədim insanın yaranması, formalaşması üçün əlverişli şərait olubdur. Ərazidən tapılan qədim paleolit abidələri bu bölgənin insanın əmələ gəlməsi regionlarından olmasını təsdiqləyir. Töyrətəpə, Şomutəpə, Qarğalar təpəsi və s. bu kimi qədim yaşayış məskənlərində aparılmış arxeoloji araşdırmalar e.ə. VI-V minilliyi əhatə edən bir dövrdə əkinçiliyin, maldarlığın inkişaf etməsini, oturaq həyat tərzinin formalaşmasını və misdən soyuq döymə üsulla müxtəlif əşya və bəzəklərin düzəldiyini aşkar etmişdir.

Ağstafa rayonunun ərazisində yerləşən "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində aparılan elmi tədqiqat və arxeoloji qazıntı işləri son dövrlər daha geniş vüsət almış, qiymətli məlumatlar əldə edilmişdir. Bu elmi tədqiqatların nəticəsi olaraq "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu olaraq yerli və xarici konfranslarda mütamadi şəkildə iştirak edilir. Bu konfransların davamı olaraq qoruq tərəfindən beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə 26-28 dekabr 2023-cü il tarixlərində Türkiyənin paytaxtı Ankara şəhərində Türkiyə Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təşkil edilən "Ankara International Congress On Scientific Research-IX" adlı beynəlxalq konfransda qoruğun direktoru Musa Mursaquliyev (onlayn), qoruğun əməkdaşları Məmmədova Firuzə (üzüzə) və Paşşanova Unnab (onlayn) elmi məqalə ilə iştirak etmişlər.

42 ölkədən 922 nəfərin qatıldığı beynəlxalq konfransda qoruğun əməkdaşları Məmmədova Firuzə "Keşikçidağın incəsənət nümunələri" adlı elmi məqalə ilə (azərbaycan və ingilis dillərində) çıxış etmiş, slaydda qoruq ərazisində yerləşən mağaraların divar və tavanlarında əks olunmuş freskalar və burada aparılmış elmi tədqiqat işləri nümayiş olunmuşdur. Məruzə konfrans dinləyiciləri tərəfindən maraqla qarşılanmışdır. Konfransın sonunda təşkilatçılar tərəfindən əməkdaşımıza iştirakla bağlı sertifikat təqdim edilmişdir.

# Qış özünü göstərir

Həmişə olduğu kimi, keçən il də dekabr ayının son günlərində ölkəmizdə qış mövsümü başlamışdı. Belə soyuq günlərdə hamı istərdi ki, heç bir problemlə üzləşməsin, evləri isti olsun, fasiləsiz olaraq təbii qaz və elektrik enerjisi ilə təmin edilsin.



Bu məsələ həmişə olduğu kimi, cari ildə də rayon rəhbərliyinin diqqət mərkəzində olmuş və qış mövsümü başlamazdan əvvəl lazımi tədbirlər görülmüşdür.

Rayon İcra Hakimiyyəti aparatının müvafiq şöbəsindən əməkdaşımıza bildirdilər ki, qış mövsümündə ən çətin iş Rayon Elektrik Şəbəkəsinin, Qaz İstismar İdarəsinin, Mənzil Kommunal Təsərrüfatı Birliyinin üzərinə düşür. Bununla əlaqədar hələ payız aylarında tədbirlər planı hazırlanmış, və həmin tədbirlər planına uyğun olaraq bir sıra işlər görülmüşdür. Belə ki, Rayon İcra Hakimiyyətinin şura iclasında qış mövsümünə hazırlığın vəziyyəti geniş müzakirə olunmuşdu. Əhalinin, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların, özəl sektorun fasiləsiz elektrik enerjisi ilə təmin olunması xüsusi diqqət mərkəzində saxlanılmışdır. Ağstafa Elektrik Şəbəkəsi tərəfindən bu sahəyə xüsusi fikir verilmiş, elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması ilə bağlı konkret addımlar atılmışdır. Poylu, Soyuqbulaq, Muğanlı, Böyük-Kəsik, Tatlı, Qırılı, Qıraq Kəsəmən və eləcə də digər kəndlərdə elektrik xətlərinə yaxın olan ağaclar budanmış, kol-kosdan təmizlənmişdir.

Ağstafa Qaz İstismar İdarəsi tərəfindən qışa hazırlıqla əlaqədar xeyli işlər görülmüşdür. Belə ki, Qaz İstismar İdarəsi daxili imkanlar hesabına qaz təchizatının yaxşılaşdırılması məqsədilə müxtəlif ərazilərdə yeni tipli qaz tənzimləyiciləri quraşdırılmışdır. Ötən günlərdə hava şəraitinin qeyri-sabit keçməsi nəticəsində rayonun Köçəsgər, Saloğlu kəndlərində qaz şəbəkəsinə dəymiş ziyanlar aradan qaldırılmışdır.

Rayonun bir sıra yaşayış məntəqələrində bəzi məhəllələr qazlaşdırılmadığından bəzi sakinlər təbii qaz yanacağından istifadə edə bilmir. Bu məsələ də diqqət mərkəzində saxlanılmış, mövcud olan problemlər aradan qaldırılmışdır.

Ağstafa Mənzil Kommunal Təsərrüfatı Birliyinin işçiləri də qışa hazırlıq işləri ilə əlaqədar xeyli işlər görmüşlər. Belə ki, kommunal mənzillərdə bəzi binalarda təmir işləri aparılmış, abadlıq işləri görülmüşdür. Binaların dam örtüklərində yaranmış problemlərin həll olunması üçün konkret işlər görülmüşdür.

Bəli, bütün bunlar onu göstərir ki, soyuq qış günlərində şəhərimizin və kəndlərimizin əhalisini narahat edən heç bir problem olmayacaqdır.

**İ. Əliyev,**
**Q. Qurbanov**

**Etibarsız sayılır**

**Köhnə Qışlaq kənd sakini Qasımov Yaqub Vaqif oğluna 2020-ci ildə verilmiş M/V 087964 nömrəli Müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



Şəmistan Göyçəli

## Birlik, həmrəylik rəmzi Dəmir Yumruq

Bizim işimiz haqq işi,
Yolumuz haqq yoludur.
Hər şeydən əziz vətən
Müqəddəsdir, uludur.
Tarixi torpaqları
Düşməndən alacağıq.
İşğaldan azad edib
Sahibi olacağıq.
Tarixi ədaləti
Bərpa edəcəyik biz.
Elliklə o yerlərə
Birgə gedəcəyik biz.
Vətən müharibəsi
Başladığı bir gündə
Müsəlləh bir əsgərtək
Hər kəs öz səngərində
Ali Baş Komandanın
Dinlədi Çağırışını.
Müdrik, mətin, mübariz
Alovlu çıxışını.
İnamla səs verdi xalq
Rəhbərin haqq səsinə
Vətən müharibəsinin
Şanlı qələbəsinə.
Xalqımın vuran qəlbi
Bir ummantək döyündü.
Birliyi, həmrəyliyi
Dəmir yumruğa döndü.
Qalxıb o dəmir yumruq
Döyüşdə qalib oldu.
Rəhbər, ordu, xalq birgə
Etimadı doğrultdu.
Qalxıb o dəmir yumruq
Hünərlə zəfər çaldı.
Birliyin, Həmrəyliyin
Rəmzi kimi ucaldı.

## Qəhrəman xalqımızın xilaskar qəhrəmanı

Cahanda hər bir hökmü
Hakim bir zaman verir.
Zamanla necə, nə cür
Bir cürə dövran verir.
Haqqa zülm edən zalım
Bir gün haqqa can verir.
Böylə deyimlər də var:
Haqq nəzilər üzülməz.
Haqq ilə ucalanlar
Heç vaxt zülm ilə enməz.
Odur ki, Hayastana,
Etdiklərənə əvəz
Göstərdi Azərbaycan,
Azərbaycan ordusu,
Qəhrəman xalqımızın
Xilaskar qəhrəmanı,
Silahlı qüvvələrin
Ali Baş Komandanı.
30 il torpaqları
İşğal altında olan,
Haqsızlığa məğlub yox,
Təəssüf ki, məruz qalan,
İşğaldan azad edib,
Torpaqlarını alan
Azərbaycan göstərdi
Haqsızlığın sonunu.
Gördü Cümləcahan həm,
Gördü Hayastan bunu.
Nədir qanunun gücü,
Nədir gücün qanunu.
Göstərdi Azərbaycan,
Azərbaycan ordusu,
Qəhrəman xalqımızın
Xilaskar qəhrəmanı,
Silahlı Qüvvələrin
Ali Baş Komandanı.
Tarix özü şahiddir
Nələrdən keçmişik biz.
Haqsızlıqlardan keçib,
Haqq yolu seçmişik biz.
Onçün aciz qalmadıq
Düşmənin qabağında.
Haqq üçün qalib olduq
İllərin sınağında.
Qalibik ki, işğaldan
Torpaqlar azad olur.
Azad olan torpaqlar
Günbəgün abad olur.
Xarabalıqlar bu gün
Bir gülüstana dönür.
Qaçqın, köçgün qayıdır
Elinə, obasına,
Dədə-baba ocağı,
Yurduna, yuvasına.
Artıq ellər, obalar
Şaddır vətən bağında.
Vətənimin xalqımın
Görürəm bu çağında.
Özü cavandan cavan,
Yaşı qocadan qoca.
Alnıaçıq, üzüağ,
Başı ucadan uca.
Varmı şanlı Zəfərdən
Olsun şərəfli bunca?
Vardır özüdür olan
Qalib bir tarix yazdı
Tarixə Azərbaycan.
Azərbaycan ordusu,
Qəhrəman xalqımızın
Xilaskar qəhrəmanı,
Silahlı qüvvələrin
Ali Baş Komandanı.

## Seçkilərə səs veririk, İlhama səs veririk

Dünyada haqq-ədalət
Gör bir nələrdən keçir.
Keçir xeyirdən, şərdən,
Dumandan , çəndən keçir.
Göz gördüyündən qorxar
Xalq bilir kimi seçir.
Dəstəkləyib İlhamı,
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!
Tarixi ədaləti
Bərpa üçün hər dəfə
İnamla səs vermişik
Biz İlham Əliyevə.
Şükür ki, gözləntilər
Çin oldu, sevə-sevə
Dəstəkləyib İlhamı,
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!
Tarixən olduğutək
Qarabağ oldu bizdə.
İşğalçı qüvvələrdən
Alınan bölgəmiz də.
Suverenliyi bərpa
Olunan ölkəmizdə
Dəstəkləyib İlhamı
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!
Haqq üçün ədalətli
Milli marağımızla,
Daha layiq şərəfə
Layiq növrağımızla.
Zəfərlərlə yüksələn
Şanlı bayrağımızla
Dəstəkləyib İlhamı
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!
Qaranlıqlar əriyib,
Üzümüzə dan gülür.
Nə xoş ki, günlərimiz
Bir-birindən xoş gəlir.
Ölkədə əmin-amanlıq,
Firəvanlıq yüksəlir.
Dəstəkləyib İlhamı
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!
Hər eldə, hər obada
Gənclər verir səs-səsə.
Bir sözlə, qoca-cavan
Verir nəfəs-nəfəsə.
İlhamla ilham verir
Bu mənzərə hər kəsə.
Dəstəkləyib İlhamı
Bir səslə deyir hamı:
-Seçkilərə gedirik!
Müzəffər xalqımızın
Müzəffər Liderinə-
İlhama səs veririk!

Baş redaktor:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi: "Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəhadətnamə: № 308

Redaksiya heyəti:
L.Eyyubova, İ.Sofuyev, M.Zeynalov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov, A.Əlixanov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Son Dakika" MMC-nin mətbəəsində çap olunmuşdur.

Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000